


## Ölkəmizi tanıyaq









# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır





Suraxanı məktəblilərinin Gəncə şəhərinə yolasalma mərasimi olub. Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin rayon parkında ucaldılan abidəsini ziyarət ediblər, Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Maarifləndirici tur-aksiyaya Suraxanı rayonunun məktəbliləri də cəlb olunub. Onlar Gəncə, Şəmkir və Göygöldə olacaqlar.

Yolasalma mərasimində məlumat verilib ki, şagirdlər Gəncə şəhərində Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərd Qəssab türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Amfiteatr, Nizami Gəncəvi adına Mərkəz və Gəncə Avtomobil Zavoduna, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, "İstiqlal" parkı və nəfis çörək zavoduna, Göygöl rayonunda Alman kirxası, sonuncu alman Viktor Klaynın ev-muzeyinə baxış keçirəcək, Hacıkənd qəsəbəsinə və Göygöl milli parkına ekskursiya edəcəklər.

Şagirdlər onlara yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Tədbir rayonun mədəniyyət kollektivlərinin hazırladıqları konsert proqramı ilə davam edib.

Sonra məktəblilər onlar üçün ayrılan avtobusla Gəncə şəhərinə yola düşüblər.

* * *

Tur-aksiyanın şimal rayonlarından olan iştirakçıları Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə yola çıxıblar. Şimal-qərb bölgəsinə ekskursiyada Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının 250-yə yaxın IX və XI sinif şagirdi, onları müşayiət edən müəllimlər iştirak edir.

Xaçmaz şəhərindən yola çıxan tur-aksiya iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Rayon icra hakimiyyətindən bildirilib ki, ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri noyabrın 17-dən 20-dək şimal-qərb bölgəsinə səyahət zamanı Qəbələ, Şəki və Zaqatalanın tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olmaq imkanı qazanacaqlar.

Tur-aksiyada iştirak edən məktəblilər Əli Hüseynli, Aliyə Osmanova və Fazil Şıxvəliyev Qəbələ, Şəki, Zaqatala haqqında çox eşitsələr də, bu bölgədə ilk dəfə olacaqlarını bildiriblər. Məktəblilər belə bir imkanı yaratdığı üçün dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Sonra məktəblilər xüsusi avtobusla ekskursiyaya yola salınıblar.

* * *

Maarifləndirici tur-aksiyaya qoşulan Yevlax rayon məktəblilərinin ölkəmizin cənub bölgəsinə ekskursiyası başlayıb. Yevlax şəhərində bu rayonun məktəblilərindən ibarət qrupun "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Lənkəran-Masallı-Astara istiqamətində üzrə yolasalma mərasimi keçirilib.

Yevlax Şəhər İcra Hakimiyyəti nümayəndələrinin, təhsil işçilərinin və valideynlərin iştirak etdiyi mərasimdə çıxış edənlər gənclərin dünyagörüşünü daha da zənginləşdirmək, onlara vətənimizi daha yaxından tanıtmaq məqsədilə keçirilən tur-aksiyanın əhəmiyyətindən söz açıb, məktəblilərə səfərlərinin xoş və mənalı keçməsi üçün tövsiyələr veriblər.

Qrup rəhbəri, rayon təhsil şöbəsinin məsləhətçisi Məhbubə Hacıyeva AZƏRTAC-a müsahibəsində deyib: "Tur-aksiyanın proqramı olduqca zəngindir. Şagirdlərimiz dörd gün ərzində Lənkəran-Masallı-Astara rayonlarının təbiəti, tarix və mədəniyyət abidələri, digər görməli yerləri ilə yaxından tanış olacaqlar. Səfər çərçivəsində intellektual oyunlar, musiqili-əyləncəli proqramlar da təşkil ediləcək".

Yevlax şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Əli Kərimxanlı tur-aksiyada iştirak etdiyinə görə sevincini belə ifadə edib: "Əvvəlki illərdə təşkil edilən tur-aksiyaları maraqla izləyirdim. Artıq mən də ekskursiyada iştirak edirəm. İnanıram ki, səfərimiz çox maraqlı keçəcək. Cənub zonası ilə bağlı oxuduqlarımı, eşitdiklərimi gözlərimlə görəcəyəm. Bilmədiyim çox şeyi öyrənəcəyəm. Tur-aksiyanın təşkilatçılarına minnətdarlığımı bildirirəm".

Tur-aksiya iştirakçıları IDEA İctimai Birliyinin nəcib təşəbbüsünə də qoşulublar. Məktəblilər "Həmiz bir ağac əkək" layihəsi çərçivəsində Yevlax şəhərində ağac əkiblər.

Sonra məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, onlar üçün ayrılmış avtobusla Lənkəran-Masallı-Astara istiqamətində yola çıxıblar.

* * *

"Qızılgüllər diyarı" kimi tanınan Zaqatala rayonunun məktəbliləri də tur-aksiyanın iştirakçıları arasındadırlar.

Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında məktəbliləri yola salmaq üçün bura toplaşan rayonun rəhbər işçiləri, müəllim və valideynlər şagirdlərə son tövsiyələrini verirdilər.

Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə artıq üç ildir ki, uğurla davam edən tur-aksiyaların yeniyetmə və gənclərin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına, onların dünyagörüşünün daha da zənginləşməsinə böyük töhfə verdiyi bildirilib. Vurğulanıb ki, ölkəmizin tarixini, mədəniyyətini, müstəqillik illərində qazanılan nailiyyətləri dərindən öyrənmək məqsədi daşıyan bu layihə Prezident İlham Əliyevin yetişməkdə olan gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə olunmasına verdiyi böyük önəmin bariz nümunəsidir. İcra hakimiyyətinin başçısı ekskursiyanın məktəblilər üçün çox faydalı olacağına, tur-aksiya iştirakçılarının ölkəmizin cənub bölgəsindən zəngin təəssüratlarla qayıdacaqlarına əminliyini bildirib.

Valideynlər adından çıxış edən Məlahət Baqqayeva bildirib ki, bu gün övladlarının həyatında əlamətdar bir gündür. Onlar bu tur-aksiyaya böyük sevinc və fərəh hissi ilə qoşulublar. Məktəblilərə bu sevinci yaşadan isə gənclərin yaxın dostu, Azərbaycan Prezidenti İlham Əliyevdir.

Yolasalma mərasimində çıxış edən Zaqatala şəhər 3 saylı tam orta məktəbin 11-ci sinif şagirdi Məhəmməd Səfərov ekskursiyanın məktəblilərin Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi ilə bağlı biliklərinin zənginləşməsində əhəmiyyətini vurğulayaraq, onlara yaradılan bu şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Humanitar fənlər gimnaziyasının 9-cu sinif şagirdi Aylin Məmmədova, Yuxarı Tala kənd 4 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Şəfəq Ömərova, Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Səyalı Şirinova və digər məktəblilər layihədə iştirak etdiklərinə görə böyük qürur hissi keçirdiklərini söyləyib, cənub bölgəsinin tarixi məkanlarına ekskursiyanı böyük səbirsizliklə gözlədiklərini deyiblər.

Yola düşməzdən əvvəl tur-aksiya iştirakçıları ulu öndərin mərkəzin qarşısındakı abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

Meydanın mərkəzində "Yallı" rəqsini ifa edən məktəblilər daha sonra havaya sülh və sevinc rəmzi olan göyərçin və şarlar buraxıblar.

Rayon rəhbərliyinin, müəllim və valideynlərin xeyir-duasından sonra Zaqatala məktəbliləri onlar üçün ayrılmış avtobusla Lənkəran-Astara-Masallı marşrutu üzrə yola düşüblər.

* * *

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Ölkəmizi tanıyaq" layihəsinin iştirakçısı olduğum üçün çox sevinirəm. Ölkəmizin dilbər guşələri ilə tanışlıq hər birimizin ürəyincədir. Kitablarda, dərsliklərdə oxuduğumuz, televiziya ekranlarından izlədiyimiz tarixi-mədəni abidələri seyr etdikcə Azərbaycanın necə qədim tarixə malik ölkə olduğunu görürük.

Bu sözləri tur-aksiyanın iştirakçısı, Tovuz şəhərindəki A.S.Puşkin adına tam orta məktəbin XI sinif şagirdi Azad Vəliyev Şəkidə AZƏRTAC-a müsahibəsində bildirib.

Maarifləndirici tur-aksiyaların əhəmiyyətini yüksək qiymətləndirən Tovuz məktəblisi deyib: "Bu layihə biz məktəblilərə ölkəmizi daha yaxından tanımağa imkan verir. Ona görə də Prezidentimizə dərin təşəkkürümüzü bildirir və belə layihələrin davamlı olmasını arzulayırıq".

* * *

"Ölkəmizi tanıyaq" tur-aksiyasına Xızı rayonundan qoşulmuşam. Vətənimizin dilbər guşələri ilə tanışlıq hamımızda xoş təəssürat yaradıb. Arzum budur ki, işğal altında olan torpaqlarımız tezliklə azad edilsin və biz belə tur-aksiyaları həmin ərazilərdə keçirək, doğma Qarabağımızın dilbər guşələrinə ekskursiyaya gedək.

Bu sözləri "Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçısı, Xızı rayonunun Sitalçay kənd 1 saylı tam orta məktəbin 11-ci sinif şagirdi Aygün Hüsiyeva Şəkidə AZƏRTAC-a müsahibəsində söyləyib.

Qədim Şəkinin tarixi məkanları ilə tanışlıqdan məmnun qaldığını vurğulayan Xızı məktəblisi deyib: "Tur-aksiya sayəsində tarix kitablarından oxuduğum Şəki xanlarının sarayını əyani gördüm, abidənin gözəlliyinə heyran qaldım. Fürsətdən istifadə edib, biz gənclərə belə bir imkan yaratdığına görə Xızı məktəbliləri adından Prezidentimiz İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm".